**Fuad Yasin oğlu MƏMMƏDOV**
Qərbi Kaspi Universiteti, Tarix və fəlsəfə kafedrası,
E-mail: Mamedovfuad372@gmail.com

# BAKI XANLIĞININ SİYASİ TARİXİ

**Xülasə**

Məqalədə XVIII əsrdə Azərbaycan tarixində mühüm yer tutan xanlıqlar dövrü və Bakı xanlığının siyasi tarixi orta əsr yazılı mənbələri və müasir dövr tarixşünaslıq əsərləri əsasında tədqiqata cəlb edilmişdir. Böyük Əfşarlar dövlətinin parçalanması ilə meydana gələn ictimai-siyasi vəziyyət, buna səbəb olan siyasi feodal pərakəndəliyi səbəb-nəticə əlaqəsi vasitəsilə araşdırılmışdır. Bakı xanlığının yaranması, Mirzə Məhəmməd xanın Nadir şahın ölümündən sonra hakimiyyətə gəlməsi və digər xanlıqlara ələlxsus da Quba xanlığı və Rusiya ilə münasibətləri göstərilmişdir. Məqalədə Bakı xanlığı haqqında XVIII-ci əsr tarixçi və səyyahların fikirləri qeyd olunmuşdur. Azərbaycanın Əfşarlar imperiyasının süqutundan sonra xanlıqlara parçalanması və xanlıqlar aralarında çəkişmələri izah edilməyə çalışılmışdır.

**Açar sözlər:** *Bakı, Bakı xanlığı, Rusiya, Mirzə Məhəmməd xan, Məlik Məhəmməd xan, XVIII-ci əsr*

**DOİ:** 10.54414/CMHP8957

## Giriş

Bakı xanlığının əsasını qoyan Mirzə Məhəmməd xan əsasən xanlığın iqtisadi vəziyyətini yaxşılaşdırmağa önəm verirdi. Yaranmış vəziyyətdən istifadə edərək feodallar arasında gedən qızğın mübarizədə Mirzə Məhəmməd xan əsasən neytral mövqe sərgiləyir. Belə ki bunu Əliqulu xan Əfşar və Nadir şahın əmisi oğlu olan Əmiraslan xanın arasında gedən mübarizədə görmək mümkündür.

Əmiraslan xan Cənubi Azərbaycanda paytaxtı Təbriz olmaqla müstəqil dövlət yaratmaq arzusunda idi və o, bütün feodallara Əliqulu xan Əfşara tabe olmamağı əmr etdi. Bunu da qeyd etmək lazımdır ki, Əmiraslan xan Cənubi Azərbaycanda müəyyən uğurlar əldə etdi, lakin Bakı xanlığı da daxil olmaqla Şimali Azərbaycan xanlıqları onun hakimiyyətini ilk başda tanımaqdan imtina etdilər. Lakin bir müddət sonra Bakı və Dərbənd xanları Əmiraslan xanın yanına öz səfirlərini göndərdilər [2, s. 219-221].

1748-ci ildə Əliqulu xanın yerinə qardaşı İbrahim şah gəlir və Əmiraslan xana qalib gələrək o da həmçinin Şimali Azərbaycan xanlıqlarını özündən asılı vəziyyətə salmağa çalışır.

1749-cu ildə İbrahim şah hər bir Azərbaycan xanından onun ordusuna 10 min nəfər hərbçi verməyi tələb etdi. Lakin Bakı xanı Mirzə Məhəmməd xan buna rədd cavabı verdi. Quba xanı Hüseynəli xan, Şəki xanı Hacı Çələbi, Salyan xanı Səfərəli xan da Bakı xanı Mirzə Məhəmməd xana dəstək oldular [2, s. 227].

20 May 1749-cu ildə İbrahim şah Nadir şahın nəvəsi Şahruh şah tərəfindən öldürülür. Şahruh da öz sələfləri kimi Şimali Azərbaycan xanlıqlarını özünə tabe etmək istəyirdi. Bu barədə Şahruh II Teymuraza yazılan məktubunda açıq aşkar bildirir. 1750-ci ildə II Teymuraz Bakı xanı Mirzə Məhəmməd xan ilə yanaşı digər xanlıqlara da Şahruhun şah tax-tacına sahib olması barədə və xanların Şahruh şaha tabe olmasını tələb edən bir məktub göndərir. Etiraz əlaməti olaraq Azərbaycan xanları məktubları cırır [9, s.67-97].

Yaranan vəziyyətlə əlaqədar olaraq xanlığın iqtisadi və hərbi gücünü nəzərə alaraq Mirzə Məhəmməd xan daha güclü qonşu dövlətin – Rusiyanın dəstəyini almağa cəhd göstərir. Məhz bu səbəbdən rus rotmisteri A.Çerkasevə Rusiyanın nümayəndəsi kimi münasibət göstərməyə başlayır və Şəhruh Mirzənin İbrahim şaha qarşı yürüşü ilə əlaqədar olaraq Rəştə yollanmamasını tövsiyə edir [2, s. 228-229].

Rusiya kimi nəhəg imperiya ilə müttəfiq olmaq üçün, Bakılı Mirzə Məhəmməd xan kömək üçün ona müraciət edir. 1749-cu ilin sonunda Bakı xanı Mirzə Məhəmməd xan səfiri Hacı Fəhimi Həştərxan qubernatorunun yanına un yardımı istəməsi və "....Zati-aliləri möhtərəm imperatorun, Mirzə Məhəmməd xanı Bakı xanı və öz sadiq tabeçisi kimi qəbul etməsini və

Bakının müdafiəçisi olmağa rica" üçün yollayır [2, s. 230].

Təəssüf ki, bu müraciətə cavab haqqında heç bir məlumat yoxdur, lakin Bakı xanının Rusiyaya müraciəti Şəki xanı Hacı Çələbinin "Azərbaycanı, o cümlədən Bakını Türk dövlətinə" vermək istəyi ilə əlaqələndirilir [9, s.67-97].

XVIII əsrin ortalarında müstəqil xanlıqlar yarandıqdan sonra, Azərbaycanın feodal hökmdarları arasında daxili çəkişmələr hələ də davam edir və daha da güclənirdi; bu da bütövlükdə hər bir xanlığın həyatına mənfi təsir edir, xalqın qüvvəsini darmadağın edirvə onları xarici təhlükə ilə mübarizədən uzaqlaşdırırdı. Nəticədə, XVIII əsrdə Azərbaycan ərazisində ən güclü xanlıqlar - Şəki, Qarabağ və Quba xanlıqlarının hökmdarları daim torpaq və şəhər uğrunda həm öz aralarında, həm də xaricdən gələn təhlükəyə qarşı mübarizə aparırdılar. Artan daxili çəkişmə kontekstində Azərbaycanda kiçik bir xanlıq olan və kifayət qədər hərbi qüvvəyə malik olmayan Bakı xanlığı, müstəqilliyini qoruyub saxlamaq üçün bir feodal hökmdardan digərinə manevr etmək məcburiyyətində qaldı [9, s.67-97].

Azərbaycan hökmdarlarının siyasətində ikilik, güclü dövlətlər arasında manevr etmələri yuxarıda qeyd edildiyi kimi, müstəqilliyin qorunmasına istiqamətləndirilmişdir. Bunu sübut etmək üçün, Quba xanı Hüseynəli xanın bundan az əvvəl Hacı Çələbi ilə birlikdə öz nümayəndələrini Türk Sultanının yanına göndərməsinə nəzər salmaq kifayətdir. Nümayəndələrin məqsədi Dərbənd və Bakı şəhərlərini tutmaq üçün Osmanlı dövlətindən qoşun göndərmələrinə nail olmaq idi. Onlar da öz növbəsində bu şəhərlərin Türkiyəyə verilməsində köməklik göstərəcəklərini vəd etdilər [9, s.67-97].

Mirzə Məhəmməd xan öz xanlığını möhkəmləndirmək üçün həm də evlilik diplomatıyasından istifadə etmək istəyirdi. Belə ki, 1756-cı ildə öz oğlu ilə Şahsevənli Əhməd xanın qızını nişanlandırdı. Lakin Əhməd xanın ölümündən istifadə edərək, Salyanlı İbrahim xan Rudbarlı onun qızını özünə arvad etdi. Məhz bu səbəbdən, Mirzə Məhəmməd xan Salyan xanı ilə vuruşmaq qərarına gəldi və hətta Kürdən keçmək üçün iki böyük kirjim (Ağac materialından hazırlanan kiçik həcmli nəqliyyat vasitəsi) hazırlatmağı tapşırdı [8. s, 54]. Lakin bu yürüşün nəticələri haqqında məlumat verilmir. Görünür ki, bu yürüş baş tutmayıb; belə ki, 1757-ci ildə Qubalı Hüseyn-Əli-xanın oğlu Fətəli öz qoşunu ilə Salyana hücum edərək, Salyan xanı İbrahim xanı qovub, Salyanı Qubaya birləşdirdi [6, s.36,139].

1757-ci ildə İran taxtına iddialı olan Məhəmməd Həsən xan Qacar Şimali Azərbaycan xanlıqlarını təhdid etməyə başladı. Təhlükə qarşısında qalan Mirzə Məhəmməd Xan özünü müdafiə etmək üçün Gəncəli Şahverdi xandan hərbi topların düzəldilməsi üçün usta istədi. Lakin Məhəmməd Həsən xanın tərəfini tutan Şahverdi xan rədd cavabı verdi [7, S.88,89]. Mirzə Məhəmməd xan Məhəmməd Həsən xan ilə toqquşmanın qarşısını almaq üçün digər Azərbaycan hökmdarları ilə birlikdə öz elçisi Hacı Əbdül Əlini qiymətli hədiyyələrlə Məhəmməd Həsən xanın yanına göndərdi [4, S. 54]. Lakin bu, Məhəmməd Həsən xanın aqressiv niyyətlərinin qarşısını ala bilmədi.

Azərbaycandan gözlənilən köməyi almayan Məhəmməd Həsən Xan 1757-ci ildə bir Qarabağ xanlığı istiqamətində yürüş başlatmağa qərar verdi. Lakin tezliklə Azərbaycan xanlarının və gürcü feodallarının birləşmiş qüvvələrinin hücumu altında Məhəmməd Həsən xan Qacar geri çəkilməyə məcbur oldu [7, s.91]. Beləliklə, nəhəng bir fateh qarşısında qalan, Azərbaycan xanlıqları həmçinin Bakı xanlığı da, öz müstəqilliklərini qoruyub saxlaya bildilər.

1759-cu ildə Məhəmməd-Həsən-xan Qacar zendlər tərəfindən öldürüldü və 1760-cı ilə qədər davam edən daxili mübarizədə qalib gələn Kerim xan Zend hakimiyyətini İranın əhəmiyyətli hissəsinə qədər genişləndirdikdən sonra Azərbaycanı fəth etmək qərarına gəldi. Bundan xəbər tutan Bakı xanı şəhərdə "topların sayını artırmaq qərarına gəldi" [3, s.98-117]. Lakin Kərim Xan Zənd öz planlarını həyata keçirə bilmədi, buna səbəb, qardaşı Zəki xanın ona qarşı üsyan qaldırması oldu [3, s.115].

XVIII əsrin 50-ci illərində güclənən Quba xanlığı ərazilərini genişləndirmək üçün mübarizə aparmağa başladı. Bu mübarizəyə rəhbərlik edən Fətəli xan Azərbaycan torpaqlarının vahid şəkildə birləşdirilməsini qarşısına məqsəd qoymuşdu. Məhz onun mahir siyasəti sayəsində 1760-cı ilə qədər Salyan (1756) və Dərbənd (1759) Quba xanlığına birləşdirildi [9, s.67-97].

Dərbəndin fəthindən sonra Fətəli xanın məqsədi Bakı xanlığını öz ərazilərinə birləşdirmək idi [9, s.67-97].

Bakı xanlığı həm iqtisadi, həm də hərbi-strateji baxımından əhəmiyyət kəsb edirdi. Qeyd etmək lazımdır ki, Bakı xanlığı nominal olaraq Quba xanlığından asılı idi. Bir sıra sənədlərdə bu öz əksini tapıb. Belə ki, rus konsulu İqumnov yazırdı ki, Bakılı Mirzə Məhəmməd xan "ləzgilərin hücumundan qorunmaq məqsədi ilə hər il Fətəli xana 8 min rubldan 10 min rubla qədər pul məbləği göndərirdi [9, s.67-97]. Bununla yanaşı, Bakı xanı, Fətəli xan kimi güclü müttəfiqə sahib olmaq üçün onun hərbi əməliyyatlarında iştirak etməyi qəbul etdi. 1765-1767-ci illərdə Fətəli xanın rəhbərliyi ilə Quba xanlığı Şamaxı xanlığına qarşı fəal əməliyyatlara başladı. Bu da, Azərbaycanın daxili həyatında və ticarətində öz əksini tapdı. Müharibə tacirlərin Bakı ilə Şamaxı arasındakı karvan yolları ilə hərəkətinə ciddi çətinliklər törətdi. Quba hakiminin siyasətini dəstəkləyən Bakı xanı Şamaxı tacirlərinin Bakıya daxil olmasını qadağan etdi. 1767-ci ildə Bakı xanı Şamaxı xanlığını fəth etmək məqsədi ilə Quba xanı ilə birlikdə Muci qalasının alınmasında iştirak etdi [9, s.67-97].

Birləşdirmə siyasətini uğurla həyata keçirmək üçün Fətəli xan evlilik diplomatiyasından istifadə etdi. 1766-cı ildə Qubalı Fətəli xan, daha əvvəl Qara-Kaitaq uçmiyi əmir-Həmzəyə söz verilmiş, bacısı Xədicə-Bikəni, Bakı xanı Mirzə Məhəmməd xanın oğlu Məlik Məhəmmədə ərə verdi və "onunla yazılı bir şərtləşmə imzaladı. Belə ki, Fətəli xana olduğu kimi, onun varislərinə də Bakı xanlarının itaəti əbədi olacaqdır [10, s.251]. Beləliklə, Dərbəndin fəthindən sonra Bakı xanı qorxurdu ki, Fətəli xan Dərbənd xanlığında olduğu kimi, onu da hakimiyyətdən məhrum edə bilər [11, s.10]. Göstərilən ittifaqı bağlayandan sonra Bakı xanı əslində özünü Quba xanından asılı elan edərək, öz hakimiyyətinin saxlanılmasını təmin etdi.

1768-ci ildə Mirzə Məhəmməd xanın vəfatından sonra, onun oğlu Məlik Məhəmməd xan Bakı xanı oldu. Məlik Məhəmməd Xan hələ atasının sağlığında dövlət işləri ilə məşğul olurdu. Bakı hökmdarının daxili işləri Quba xanlığına sərf edən qaydada aparılırdı, amma Məlik Məhəmməd xanın özünün şəxsiyyəti haqqında çox ziddiyyətli fikirlər var idi. Rus hakimiyyət nümayəndələri Məlik Məhəmməd xan haqqında kifayət qədər yaltaq ifadələr deyirdilər. Onu "kiməsə kömək etmək üçün tamamilə yararsız hesab edirdilər" [12, S.83]. Görünür ki, bütün bunlar Bakı xanının rus hakimiyyət orqanlarının ayrı-ayrı nümayəndələrinə qarşı qeyri-dost münasibətindən irəli gəlirdi. Ona görə də, 1770-ci ildə Xəzəryanı rayonların iqtisadi mənzərəsini öyrənmək bəhanəsi ilə rus akademiki S.G.Gmelinin Bakıya xüsusi səfəri öz hökumətinin gizli göstərişlərinə əsasən hərbi-siyasi xarakterli material toplamaq məqsədini güdürdü. Gmelinin Abşeronda yerləşən neft quyularını nəzərdən keçirməsi, Bakı xanının şübhəsini doğurdu və hətta onu nəzarət altında saxlamaq üçün onun arxasınca izləyici yolladı. Məhəmməd Xan bunu belə əsaslandırırdı ki, "... Rusiya, bir əcnəbinin onların təbii sərvətlərini yoxlamağına icazə verərdi mi?! ..." [12, s.77]. Bakı hökmdarı Gmelini şəhər daxilində evlə təmin etmədi və Gmelin şəhərdən kənarda açıq ərazidə məskunlaşdı. Hətta, xan ona quyulardan şirin su götürməyə belə icazə vermədi və Gmelin Bakını tərk etməyə məcbur oldu [5.s,191]. Görünür, Bakı xanı Məlik Məhəmməd xanın bu münasibəti Gmelinin onun haqqında təhrif edilmiş ifadələrinə səbəb oldu. Gmelin "Məlik Məhəmməd xanın tabeliyində olan şəxslərə çox da xoş münasibət bəsləmədiyini" iddia edirdi [12, s.83-84].

Məlum səbəbdən Quba xanı öz siyasətində Bakı xanına çox etibar edirdi və demək olar ki, Fətəli xanın bütün danışıqlarında Məlik Məhəmməd xan həmişə iştirak edirdi.1779-cu ilin əvvəlində Qubalı Fətəli xan Məlik Məhəmməd xanı Qarabağ xanı ilə Quba xanlığı arasında "ortaq dostluq sazişi bağlaması" üçün İbrahimxanın yanına göndərdi. Lakin,İbrahim Xan, missiyanın səmimiliyini şübhə altına alır və Məlik Məhəmməd xanı əsir götürür [1, s.135]. Amma iki ildən sonra onu azad etməyə məcbur olur; belə ki, Məlik Məhəmməd xanın geri dönməsini gözləmədən Fətəli xan Şamaxı xanı və Tarkov Şamxalı ilə birləşərək Qarabağa yürüşə hazırlaşır. Bundan xəbər tutan İbrahim xan Bakı xanını azad edir və sonuncu 1781-ci ilin yanvarında Bakıya qayıdır [13, s.292]. Məlik Məhəmməd xanın olmadığı dövrdə Bakını onun arvadı Xadicə-Bikə idarə edirdi. Ənzəlidən Bakıya gələn rus konsulu Tumanovskinin dediyinə

görə, "...Xədicə-Bikə Rusiyaya böyük xeyirxahlıq və sədaqət göstərdi.... [13, s.292]. Ancaq arxiv sənədlərindən göründüyü kimi, bu "lütf" uzaqgörən siyasət kimi qiymətləndirilmişdi; belə ki, "Xan arvadı", rus qoşunlarının daxil olması təhlükəsi qarşısında qalaraq əmlakını ruslar tərəfindən talan edilməməsi üçün Qubanın dağlıq ərazisinə göndərdi. Hətta onun göstərişi ilə Həştərxandan gələn gəmilərə nəzarət gücləndirildi.

Hərbi gəmilərin Bakıya yaxınlaşdığı halda "xan arvadı" Qubaya qaçmağı nəzərdə tuturdu. Bakı sakinləri də ondan nümunə götürərək, öz əmlaklarını yaxın kəndlərə apardılar [13, s.292].

**Nəticə**

1747-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycanda meydana gələn xanlıqlar və bunun nəticəsi olan feodal dağınıqlıq dövrü Azərbaycanın vahid şəkildə birləşməsinə mane olurdu. Yaranan xanlıqların bir- biriləri ilə mübarizəsi ayrı-ayrılıqda hər bir xanlığı zəiflədir və bu zəifləmədən qonşu dövlətlər yararlanmağa çalışırdılar. Əksər xanlıqlar arasında mübarizə getdiyindən sosial-iqtisadi münasibətlərin olmaması xanlıqların iqtisadi həyatına ciddi zərbə vururdu. Quba xanlığı Bakı xanlığını nigah diplomatiyasından istifadə edərək öz tərkibinə sala bildi. Lakin Fətəli xanın ölümündən sonra bu asılılıq başa çatdı və Bakı xanlığı müstəqil siyasət yeritməyə davam etdi. Lakin bu müstəqillik dövründə Bakını həm Rusiya, həm də İran ələ keçirməyə can atırdılar.

## ƏDƏBİYYAT SİYAHISI:

1. A.K.Bakikhanov. Gulistan-Iram. - Baku, 1926.
2. F.M.Aliev. Antiiranskie vystupleniya...; 1975.
3. F.M.Aliyev Azərbaycan şəhərləri XVIII-ci əsrin birinci yarsında. - Bakı, 1964.
4. I.Ya.Lerkh. Svedeniya o vtorom puteshestvii v Persiyu v 1745-1747 gg
5. Iskender-Bek Gadzhinskii. Zhizn' Fatalikhana Kubinskog 1959.
6. G.B.Abdullaev. Iz istorii Severo-Vostochnogo Azerbaidzhana...
7. G.N.Mamedova. Russkie konsuly ob Azerbaidzhane /20-60-e gody XVIII veka - Baku, 1980.
8. I.Ya.Lerkh. Svedeniya o vtorom puteshestviye v Persiyu v 1745-1747 g.
9. İsgəndərova M.S. Bakinskoye xanstvo, 1999
10. P.G.Bugkov. Materialy dlya novoi istorii Kavkaza, s 1722 po 1803 god.
11. S.D.Burnashev. Opisanie oblastei Adrebizhanskikh v Persii..... - Kursk1793.
12. S.G.Gmelin. Puteshestvie po Rossii dlya issledovaniya vsekh trekh tsarstv estestva v prirode, ch.III. - SPb.,1785.
13. S.B.Ashurbeili. Ocherki istorii srednevekovogo Baku (VII - nachalo XIX v.). – Baku 1964.

**Фуад Ясин оглы МАМЕДОВ**
Западно-Каспийский Университет, Кафедра истории и философии, магистрант
Email: mamedovfuad372@gmail.com

## ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ БАКИНСКОГО ХАНСТВА

**Резюме**

Статья посвящена изучению периода ханств и политической истории Бакинского ханства занимавших важное место в истории Азербайджана в XVIII веке на основе средневековых письменных источников и современных историографических трудов.

Через причинно-следственную связь исследована социально-политическая ситуация, вызванная распадом Великого Афшарского государства, вызвавшая его политическая феодальная раздробленность. Показаны образование Бакинского ханства, приход к власти Мирзы Мухаммад-хана после смерти Надир-шаха и других ханств, особенно Губинского ханства, и их отношения с Россией. В статье упоминаются мнения историков и путешественников XVIII века о Бакинском ханстве. Была предпринята попытка объяснить распад Азербайджана на ханства и раздоры между ханствами после падения Афшарской империи.

**Ключевые слова:** *Баку, Бакинское ханство, Россия, Мирза Мухаммад-хан, Мелик Мухаммад-хан, XVIII век.*

**Fuad Yasın MAMMADOV**
Western Caspian University, Departament of History and Philosophy, master's deqree
Email: Mamedovfuad372@gmail.com

## POLITICAL HISTORY OF BAKU KHANATE

**Summary**

The article is devoted to the investigation of the period of khanates and political history of Baku Khanate, which played an important role in the history of Azerbaijan in the 18th century, on the basis of medieval written sources and modern historiographical works. The socio-political situation caused by the disintegration of the Great Afshar state, and political feudal fragmentation that led to, was investigated through the cause-and-effect relationship. The establishment of the Baku Khanate, Mirza Muhammad Khan's coming to power after Nadir Shah's death and relations of other khanates, especially the Guba Khanate with Russia, are shown in the article.. The article mentions the opinions of 18th century historians and travelers about the Baku Khanate. An attempt was made to explain the division of Azerbaijan into the khanates and strife between khanates after the fall of the Afshar Empire.

**Keywords:** Baku, Baku Khanate, Russia, Mirza Muhammad Khan, Malik Muhammad Khan, 18th century